*UOT 37*

***Aydın Rzaxan oğlu İbişov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının baş müəllimi*
*https://orcid.org/0009-0001-9903-2787*

# ƏLİAĞA KÜRÇAYLI POEZİYASINDA KLASSİK ƏNƏNƏLƏRDƏN İSTİFADƏ, VƏTƏN VƏ TƏBİƏTİN FÜSUNKAR GÖZƏLLİYİNİN TƏSVİRİ

***Айдын Рзахан оглы Ибишов***
*преподаватель Джалилабадского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*

# ИСПОЛЬЗОВАНИЕ КЛАССИЧЕСКИХ ТРАДИЦИЙ В ПОЭЗИИ АЛИАГИ КУРЧАЙЛИ, ОПИСАНИЕ ЗАВОРАЖИВАЮЩЕЙ КРАСОТЫ РОДИНЫ И ПРИРОДЫ

***Aydın Rzaxan Ibishov***
*teacher of Jalilabad branch of Azerbaijan State Pedagogical University*

# THE USE OF CLASSICAL TRADITIONS IN THE POETRY OF ALIAGHA KURCHAYLI, THE DESCRIPTION OF THE FASCINATING BEAUTY OF THE MOTHERLAND AND NATURE

**Xülasə.** Əsrlər boyu məhəbbət lirikası Azərbaycan şeirinin əsas mövzusu olaraq qalmış, ən müxtəlif məsələlər məhz məhəbbət lirikasında ifadə edilmişdir. Bu mövzuda yazılmış ən yaxşı şeirlərdə qabaqcıl müasirimizin ən ülvi, humanist, insani duyğularını, arzu və istəklərini onun daxili aləmi timsalında cəmiyyətin yetirməsi olan insanın vətəndaş kamilliyinin yeni çalarlarını görürük. Bu cəhətdən, bir çox şairlər kimi, Ə. Kürçaylının da ən yaxşı məhəbbət şeirlərində müasirlərimizin kövrək, zərif hisslərini duyuruq.

Poetik istedadın ən mühüm keyfiyyətlərindən biri həyata baxışın, onu qavramağın özünəməxsusluğu və dərinliyidir. Bu cəhətdən Əliağa Kürçaylının yaradıcılığı onun istedadını ədəbiyyatımızda yeni bir hadisə kimi qiymətləndirməyə haqq verir.

Ə. Kürçaylının da ən yaxşı məhəbbət şeirlərində müasirlərimizin kövrək, zərif hisslərini duyuruq Şairin yaradıcılığında poeziyamızdakı aydın, obrazlı bədii konkretliyin ən qabarıq təzahürlərinə rast gəlirik.

Məqalədə şairin poetik fərdiyyəti araşdırılmışdır.

***Açar sözlər:*** *məhəbbət lirikası, Azərbaycan şeiri, şair, poeziya, istedad, obrazlı, ədəbiyyat*

**Резюме.** На протяжении веков любовная лирика оставалась главной темой азербайджанской поэзии, в любовной лирике отражались самые разнообразные вопросы. В лучших стихотворениях, написанных на эту тему, мы видим самые возвышенные, гуманистические, человеческие эмоции, желания и стремления нашего передового современника, новые оттенки гражданского совершенства человека, являющегося даром общества в виде его внутреннего мира. В этом отношении, в лучших любовных стихах А. Курчайли мы чувствуем хрупкие и тонкие эмоции наших современников.

Одним из важнейших качеств поэтического таланта является своеобразие и глубина взгляда на жизнь и ее восприятие. В этом отношении творчество Алиаги Курчайли дает нам право оценивать его талант как новое явление в нашей литературе.

В статье исследуется поэтическая индивидуальность поэта.

***Ключевые слова:*** *любовная лирика, азербайджанская поэзия, поэт, поэзия, талант, образность, литература*

**Summary.** Over the centuries, love lyrics have remained the main theme of Azerbaijani poetry, the most diverse issues have been expressed in love lyrics. In the best poems written on this topic, we see the most sublime,

humanistic, human emotions, desires and aspirations of our advanced contemporary, new shades of the civic perfection of a person who is a gift of society in the form of his inner world. In this respect, like many poets, A. In Kurchayli's best love poems, we feel the fragile and delicate feelings of our contemporaries.

One of the most important qualities of poetic talent is the uniqueness and depth of the view of life and its perception. In this respect, Aliagha Kurchayli's creativity gives us the right to evaluate his talent as a new phenomenon in our literature.

A. In Kurchayli's best love poems, we feel the fragile and delicate feelings of our contemporaries.

The poet's poetic individuality is investigated in the article.

***Key words:*** *love lyrics, Azerbaijani poetry, poet, poetry, talent, figurative, literature*

Ə. Kürçaylı xalq ədəbiyyatını, klassik poeziyanı yaxşı bildiyindən, əsərlərində bu intəhasız xəzinədən yaradıcı yolla faydalanmışdı. Şairin əsərlərində rast gəldiyimiz aforizm təsiri bağışlayan misra və beytlər də öz ruhu etibarilə xalq şeiri qaynaqlarını yada salır.

Vətən intəhasız, ömür azdı, az
Bu qısa ömür də keçməsin hədər
Adam səadəti evə çağırmaz
Adam səadətin dalınca gedər!

Bu deyilənlər poeziya sənətkarlığının ən mühüm təzahürlərindən olan dil üzərində işləmək problemi ilə bağlıdır. Bir çox hallarda Ə. Kürçaylı şeirinin dili o qədər axıcı, rəvan və təbiidir ki, onların az qala, Aşıq Ələsgərin dili ilə desək, elə “qüdrətdən” bu cür yarandığına inanmaq istəyirsən...

Fələyin qəhrinə şeri, sözüylə
Ağladı Natəvan, güldü Natəvan.
Elin kədərini, elin özüylə
Yavan tikə kimi böldü Natəvan.

Camalı bir günəş, üzü aypara,
Saçları gecənin gözündən qara
Vəfasız dövrana, vəfasız yara
Söz qoşan yanıqlı dildi Natəvan.

Qəlbinə söylədi güntək yaşa, yan
Qalır el içində yanıb, yaşayan
Dönüb tunc heykələ gözəl Şuşada
Bakının qoynuna gəldi Natəvan.

Burada müvəffəqiyyəti təkcə forma tələblərinə riayət olunması təmin etməmişdir. Qoşmada, birinci növbədə, Kürçaylının X. Natəvanın yaradıcılığına münasibəti maraqlı ifadəsini tapmışdır. Şair haqlı olaraq bu qənaətdədir ki, Natəvanın əsərlərindəki dərin kədər duyğuları heç də onun yalnız şəxsi həyatının, ailə faciəsinin, sinəsinə çəkilmiş oğul dağının inikası deyil. Natəvanın sənətində həm də yoxsulluq, gerilik, cəhalət içrə qalmış o zamankı Azərbaycan kəndinin, elinin, obasının dərdi, faciəsi səslənir.

Əsrlər boyu məhəbbət lirikası Azərbaycan şeirinin əsas mövzusu olaraq qalmış, onun fəlsəfi mahiyyətindən tutmuş, kəskin sosial incəliklərə müdaxiləyə qədər ən müxtəlif məsələlər məhz məhəbbət lirikasında ifadə edilmişdir. Həmin ənənə bu gün də davam edir. Bu mövzuda yazılmış ən yaxşı şeirlərdə qabaqcıl müasirimizin ən ülvi, humanist, insani duyğularını, arzu və istəklərini onun daxili aləmi timsalında cəmiyyətin yetirməsi olan insanın vətəndaş kamilliyinin yeni çalarlarını görürük. Bu cəhətdən, bir çox şairlər kimi, Ə. Kürçaylının da ən yaxşı məhəbbət şeirlərində müasirlərimizin kövrək, zərif hisslərini duyuruq.

Adi həyat faktları, lirik detallar, epizodlar timsalında bəşəri məzmun kəsb edən humanist həqiqətləri, xoşbəxt, işıqlı sabahı xatırlamaq özlüyündə şeirimizin, lirik qəhrəmanın insan narahatlığını, insan həssaslığını nümayiş etdirir, bu qəhrəmanın fikri və insani kamilliyinin mücəssəməsinə çevrilir. Şairin “Mən insanam” şeiri bu cəhətdən diqqəti cəlb edir.

Desələr qış günü ollam gül-çiçək,
Yayda görərlər ki, yağan qar mənəm
Dörd fəsli özündə yaradan ürək
Bilir bu aləmdə hər nə var – mənəm,
Duyğular, istəklər, arzular mənəm!

Müasir şeirimizin bir çox lirik qəhrəmanı insanlığın taleyini düşünür, dağıdıcı atom müharibəsi təhlükəsi, müharibə dəhşətlərinin təkrar ola biləcəyi kimi ehtimalları xatırladır, onların aradan qaldırılmasına, müharibə təhlükəsinin yox edilməsinə çağırır. Onun xarakterində mühüm cəhət odur ki, dünyanı bütöv, həmrəy gör-

məyə çalışır. Millətləri, dövlətləri, xalqları birləşdirməyə, hətta çəpərləri də söküb-atmağa, adamları da sərhədsiz yer kürəsinin vətəndaşlarına çevirməyi arzu edir. Belə şeirlərin lirik qəhrəmanı bütün bəşəriyyətin taleyini düşünən qabaqcıl mütəfəkkir kimi, ən həssas humanist insan kimi qarşımıza çıxarır. Onun üçün insanın və təbiətin azadlığı bir-birindən ayrı deyildir. Şairin "Bizim planet" şeirinə nəzər yetirək:

İnsan bilirdi ki, Yer kürəsində
Qucağı doludur arsenalların
Ölüm qoxusu var buz nəfəsində
Qarımış, qartımış generalların.

Bilirdi neytron, atom haçaqdır.
Yatır yuvasında bir ilan kimi,
Töküb zəhərini sıçrayacaqdır
0, "qış yuxusundan" ayılan kimi.

Necə də sakitdir meşə, dəniz, dağ!
Kaş bu ucalıqdan görəydiniz siz
Gəlin, onu belə sakit saxlayaq,
Nə qədər gözəldir planetimiz!

Şeirimizin lirik qəhrəmanının insani kamilliyi bir də onda özünü göstərir ki, o, bütün bəşəriyyətin taleyi üçün məsuliyyət hiss edir. Bu məsuliyyət hissi süni deyildir, onun vicdanının səsidir.

Ə. Kürçaylının yaradıcılığında poeziyamızdakı aydın, obrazlı bədii konkretliyin ən qabarıq təzahürlərinə rast gəlirik.

Onun ölümündən keçən günlərin sayı artdıqca, müasir poeziyamız üçün mənəvi diriliyi və təsiri daha da qüvvətlənir, daha da aşkar duyulur. İllər keçdikcə bu poeziyanın nüfuzu daha da artır. Biz onu poetik hadisə kimi ancaq ölümündən sonra dərk etməyə başladıq.

Ə. Kürçaylının poetik ənənələrimizə bədii forma və düşüncə ritmi cəhətdən bağlılığı daha qüvvətlidir. Mövzu özünəməxsusluğu cəhətdən onun yaradıcılığı tam orijinal bir hadisədir. Şairin poetik fərdiyyətini araşdırmaq üçün, ilk növbədə, onun lirikasının özünəməxsusluğundan başlamaq daha doğru olar. Poetik istedadın ən mühüm keyfiyyətlərindən biri həyata baxışın, onu qavramağın özünəməxsusluğu və dərinliyidir. Bu cəhətdən Əliağa Kürçaylının yaradıcılığı onun istedadını ədəbiyyatımızda yeni bir hadisə kimi qiymətləndirməyə haqq verir. Onun lirikasının mövzu özünəməxsusluğu adi məişət detallarında belə insani, bəşəri məna görmək, onu poetikləşdirmək bacarığı kimi meydana çıxırdı. Bu baxımdan Əliağa Kürçaylının lirikası humanist məzmuna malikdir. Bu humanizm məişət xırdalıqlarının adiliyində yüksək insani məzmun kəşfinin ifadəsi kimi maraqlıdır.

Gəl dünyanı gəzək qoşa,
Sən mənimçün,
Mən səninçün
Bu yollarda dolaq yaşa
Sən mənimçün,
Mən səninçün

Dağa baxaq, düzə baxaq,
Sözsüz belə sözə baxaq
Yalnız bir cüt gözə baxaq
Sən mənimçün,
Mən səninçün

Yazda dolu bulud olaq.
Yayda yaşıl söyüd olaq.
Ağır gündə ümid olaq
Sən mənimçün,
Mən səninçün

Əsl mənada həyatdan şirə alan həqiqi sənət əsərləri və xüsusi poeziya bu işdə çox böyük əhəmiyyətə malikdir. Çünki həqiqi sənət əsəri yaratmaq üçün böyük istedadla bərabər, həyat eşqi və gözəllik həsrəti ilə çırpınan böyük bir ürək də lazımdır. Böyük vətəndaşlıq pafosu ilə zəngin olan müasir poeziyamızda həyat eşqi, gözəllik ehtirası həmişə ən qüdrətli amillərdən olmuş və olmaqdadır.

Yarpaqları kilitləndi səhər mehiğ
mirvaritək
Payız otu nə yumşaqdır bir körpənin
saçları tək.
Bir vaxt heyva kimi qozun enli yarpaqları.
Bir vaxt sellər haray salan, yüz qol axan
çaylaqları,
İndi sükut bürüyübdür; şaqqıldamır
qara daşlar...

Qadir rəssam – təbiətin nə ecazkar
fırçası var!
Görürsən, bu insanların sevinci var,
kədəri var,
Hər ürəyin məna dolu yazılmamış
əsəri var.
Gəl onları yazaq, dostum, budur
həyat şeriyyəti
Ana yurdun insanları, ana yurdun təbiəti.

Bu misralar istedadlı şairimiz Əliağa Kürçaylının "Durnalar cənuba uçur" kitabındakı "Ana yurdun hədiyyəsi" adlı şeirindən götürülmüşdür. Burada təbiətin füsunkar gözəlliyi incə, həssas bir şair zövqü və ilhamı ilə rəsm edilmişdir. Həm də şair yalnız təbiət gözəlliklərini vəsf etməklə kifayətlənmir, min bir məna dolu insan həyatının, insan taleyinin sirli dünyasından da xəbər verməyi zəruri sayır.

"Durnalar cənuba uçur" kitabındakı şeirlər üçün məziyyət sayıla biləcək birinci və əsas cəhət hadisə və lövhələrin təsvirindəki böyük təbiilik və həyatilikdir. Bu cəhət xatirə xarakterli şeirlərdə daha güclüdür.

Müəyyən ömür yaşamış hər kəsdə özü üçün çox doğma, əziz olan xatirələr dünyası olur. Ə. Kürçaylı da ötən günlərin xatirələrini vərəqləyir, vaxtilə baş vermiş hadisələrin unudulmaz xəyallarına dalır, onları təfərrüatı ilə yenidən təsvirə, tərənnümə başlayır. İstər insanın ictimai fəaliyyətindən, qurub-yaratmaq ehtirasından danışdıqda, istərsə də onu vəcdə gətirən təbiətin əsrarəngiz gözəlliklərini rəsm etdikdə şairin zəngin və həssas müşahidəsi, həyata əsl poetik, fəlsəfi baxışı diqqəti cəlb edir. Şairin müşahidə və düşüncələri çox zaman ötən günlərin şeirin xatirələrinə dalan kövrək bir qəlbin döyüntüləri ilə bağlanır, maraqlı, həzin, lirik lövhələr bir-birini əvəz edir.

"Ana nağılları" şeirində şirin, unudulmaz uşaqlıq xatirələrini, anasının söylədiyi nağılları yada salır. "Kəndimizin haqqında düşüncələr" isə bu iki şeiri sanki tamamlayır. Şair on yaşlı balası ilə doğma kəndlərini seyr edir. Burada hamı yada düşür. Elə bil ki, şair qəlbi ana torpaqdan doğma, əziz kəndə keçən günlərin nisgilli arzularını, xatirələrini soruşmaq, yada salmaq, birində onların uşaqlıq nağılları qədər şirin və əfsanəvi xəyalları ilə yaşamaq, düşünmək istəyir. Lakin bu kədərli-sevincli xatirələrin hər biri doğma torpağa, vətənə olan böyük, qüdrətli məhəbbətin tərənnümü kimi səslənir. Əsərin sonunda şair oğluna müraciətlə deyir:

Əyil öp bu yeri – baba yurdunu,
Əyilsən o səni qaldırar, oğul!
Sən yaşa dolursan...
Unutma bunu
Torpaqda qaldırmaq gücü var, oğul!

"Qartal", "Düşüncələr", "Bizim yerlər", "Sağalmaz yara", "Kor" şeirləri də təsvirlərin həyatiliyi, realizm qüvvəsi etibarilə belə müvəffəqiyyətli əsərlərdəndir.

"Durnalar cənuba uçur" şeirinin ikinci məziyyəti insanın mənəvi dünyasının, hisslər, duyğular aləminin həssas və zərif ifadəsi sayılmalıdır. Burada lirik şeirlərdə böyük və ülvi bir məhəbbətin, eşqin tərənnümü vardır.

Şair lirik qəhrəmanın yaşadığı məhəbbətin böyüklüyünü, qüdrətini, daha parlaq etmək üçün çox zaman təbiət lövhələri ilə maraqlı, orijinal müqayisələr, bədii paralellər aparır.

Şair "Sənsizlik" şeirində məhəbbətin iztirablarından, hicrandan şikayətlənərək qəfildən qurumağa başlamış nəhəng bir ağacı yada salır. Hamının biganə qaldığı, yanından saymazyana ötdüyü tənha bir ağac. Halbuki bir ovuc su da bəlkə ona həyat verərdi. Şairi öz əhval-ruhiyyəsi ilə həmin ağac arasında bir oxşarlıq görərək deyir:

Necə bənzəyirəm həmin ağaca,
Başımdan keçəni xəbər alırsan
Sənsizlik adlanan bir ehtiyaca
Mən boyun əymişəm səndən də pünhan.

Ümumiyyətlə, Ə. Kürçaylının lirik şeirlərində təbiət ünsürləri ilə insan xarakteri əhval-ruhiyyəsi arasında maraqlı oxşarlıqlar, uyğunluqlar diqqəti cəlb edir.

**Problemin aktuallığı.** Əliağa Kürçaylı çoxcəhətli yaradıcılığı ilə XX əsr Azərbaycan poeziyasında özünəməxsus yer tutmuşdur. Yaşadığı 52 il ərzində çox məhsuldar işləmiş, şeirə, sənətə ciddi münasibət bəsləyərək məhz poetik nümunələrə, əsl ədəbi əsərlərə imza atmışdı. Kürçaylının şeirləri öz lirik tempinə, axarına və ritmik melodik xüsusiyyətlərinə görə nəğmə janrına yaxındır.

**Problemin elmi yeniliyi.** Ə. Kürçaylı yaradıcılığı üçün təbiət, məhəbbət lirikası, incə, səmimi hisslər səciyyəvi idi. Onun şeirlərini lirik miniatürlər

də adlandırırlar. Ə. Kürçaylının şeirləri öz lirik tempinə, axarına və ritmik melodik xüsusiyyətlərinə görə nəğmə janrına yaxındır. Ona görə də şeirlərinə çoxlu sayda mahnılar bəstələnmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədən ali, ümumtəhsil məktəb müəllimləri faydalana bilərlər.

**Ədəbiyyat:**


1. Kürçaylı, Ə. Seçilmiş əsərləri. / . Ə. Kürçaylı. – Bakı: Azərnəşr, 2004.
2. Kürçaylı, Ə. Durnalar cənuba uçur. / Ə. Kürçaylı. – Bakı: Gənclik, 1967.
3. Kürçaylı, Ə. Şeirlər. / Ə. Kürçaylı. – Bakı: Azərnəşr, 1963.
4. Kürçaylı, Ə. Yollarda axtar məni. / Ə. Kürçaylı. – Bakı: Gənclik, 1970.
5. Kürçaylı, Ə. Səfərə çıxıram. / Ə. Kürçaylı. – Bakı: Azərnəşr, 1956.


**E-mail:** ibişov.59@mail.ru

**Rəyçilər:** *filol.ü.fəls.dok.* **Y.B. Dadaşlı,**
*ped.ü.fəls.dok.* **X.A. Talıbova**
**Redaksiyaya daxil olub:** 11. 04. 2023